# AZƏRBAYCANDA SƏHRALAŞMA PROSESİNİN QLOBAL İQLİM DƏYİŞMƏLƏRİ FONUNDA TƏDQİQİ

**Teymur Hacıyev, Səadət Hüseynova**

*AR Milli Aerokosmik Agentliyinin Ekologiya İnstitutu, Bakı*
*timbas.1979@gmail.com, seadet_huseynova@mail.ru*

Qlobal iqlim dəyişmələri fonunda baş verən səhralaşma prosesi bu gün dünyanın əsas problemlərindən biri olaraq qalır. Temperatur yüksəldikcə bir çox bitki növlərinin yaşayış yerləri dəyişikliklərə məruz qalır. Bu növlərin sürətlə dəyişən şəraitlə ayaqlaşa bilməyib məhv olması ekosistemin tarazlığını pozur. Deqradasiyaya məruz qalmış, həyat qabiliyyətini itirmiş ölü zonalar getdikcə artır. Səhralaşma prosesi sürətlənir. Bu proses Azərbaycanda da gedir. Bu gün respublikamızın əsas ekoloji problemləri olan münbit torpaqların deqradasiyaya uğraması (eroziya, şoranlaşma, səhralaşma), biomüxtəlifliyin seyrəkləşməsi məsələləri aktual, həllini gözləyən məsələlərdir.

Azərbaycanda səhralaşma prosesi əsasən aşağıda adları göstərilən təbii fiziki-coğrafi ərazilərdə aktiv fazada müşahidə edilmişdir:

1. Kür-Araz ovalığı;
2. Naxçıvan MR ərazisi;
3. Abşeron yarımadası.

Bildiyimiz kimi, Azərbaycanda 13% təbii, 87% isə antropogen faktorlar mövcuddur. Səhralaşma prosesləri ilə mübarizə tədbirləri aparılan zaman məhz antropogen faktorların aradan qaldırılması həyata keçirilməlidir. Səhralaşma ilə mübarizə tədbirləri aşagıdakılardan ibarətdir:

- səhralaşmış ərazilərin inventarlaşdırılması və xəritələşdirilməsi;
- səhralaşma proseslərinin uzunmüddətli ekoloji monitonqini təşkil etmək (buraya hidrometereoloji, aqrokimyəvi, bioloji, hidroloji stansiyaların nəzarəti, ərazinin aerokosmik şəkillərinin çəkilməsi də daxildir);
- təbii ehtiyatlardan səmərəli istifadə etmək, otlaqlardan istifadəyə nəzarət;
- meliorasiya işlərinin, həmçinin fitomeliorasiya işlərinin aparılması;
- su ehtiyatlarından səmərəli istifadə və onların genişləndirilməsi;
- əkinçilikdə torpaqlardan düzgün istifadə, aqrotexniki qaydalara riayət edilməsi;
- otlaqların fitomeliorasiyası, həmçinin səhralaşmış ərazilərdə qumsallıqları bərkidən bitkilərin əkilməsi;
- biomüxtəlifliyin qorunmasının təşkil edilməsi;
- səhralaşmaya dair fundamental tədqiqat işlərinin aparılması; səhralaşmanın dinamikasına nəzarət, səhralaşma ilə bağlı proqnozların verilməsi;
- səhralaşma ilə mübarizədə sosial-iqtisadi mexanizmlərdən istifadə, bu mübarizəyə dövlət nəzarətini təmin etmək;
- səhralaşma ilə mübarizədə beynəlxalq əməkdaşlığın rolunun artırılması.